# TOPÇUBAŞOV BEYNƏLXALQ ARBİTRAJI

# İDDİAÇI MEMORANDUMU

## İddiaçı tərəf "Supermarket" MMC

## 4İ

**01.10.2022**

# MÜNDƏRİCAT


**İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR** .......... 3

**FAKTLARIN TƏQDİMATI** .......... 4

**ARQUMENTLƏRİN XÜLASƏSİ** .......... 5

**ARQUMENTLƏR** .......... 5

**I. Arbitraj hazırki işə baxmağa səlahiyyətlidir, çünki (1) müqavilədən və (2) qanunvericilik aktlarından işə arbitrajda baxılmalı olduğu anlaşılır.** .......... 5

1. Tərəflər arasında bağlanmış 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsinin icrası ilə bağlı yaranan mübahisəyə hazırkı arbitraj tribunalında baxılmalıdır. .......... 5

2. Həm NY Konvensiyası, həm də əksər milli arbitraj qanunları arbitraj sazişinin yazılı olmasını rəsmi tələb kimi müəyyən edir. .......... 6

**II. Cavabdehin irəli sürdüyü arqumentlər əsassızdır.** .......... 7

**III. Sanksiyanın tətbiqi cavabdehi öhdəliklərinin icrasından azad etmir.** .......... 9

**IV. Cavabdeh müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsinə görə məsuliyyət daşıyır: Cavabdehin öhdəliklərini icra etməməsi üçün gətirdiyi əsaslar müqavilə və qanunvericiliklə ziddiyyət təşkil edir.** .......... 11

**TƏLƏBLƏR** .......... 14

**I. Cavabdeh öz öhdəliklərini icra etmədiyi üçün İddiaçı real zərərlə üzləşmiş və buna görə də “Soba” LTD tərəfindən 1.000.000 ABŞ dolları real zərər və 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Müqaviləyə əsasən gündəlik 1 faiz həcmində cərimə “Supermarket” MMC-yə ödənilməlidir.** .......... 14

**II. Öhdəliyin Cavabdeh tərəfindən icra edilməməsi səbəbindən İddiaçı Malları başqa Satıcıdan yüksək qiymətə almaq məcburiyyətində qalaraq 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsi üzrə əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur. Buna görə də “Soba” LTD tərəfindən təxminən 250.000 ABŞ dolları təşkil edən zərəri əldən çıxmış fayda şəklində “Supermarket” MMC-yə ödəməlidir.** .......... 15

**III. Cavabdehin İddiaçıya cəmi 1.250.000 ABŞ dolları həcmində olan borcundan qanunvericiliyin tələblərinə uyğun olaraq, Mərkəzi Bankın təyin etdiyi uçot faiz dərəcəsi ilə 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər hesablanmış faizlər “Soba” LTD tərəfindən “Supermarket” MMC-yə ödənməlidir.** .......... 15

**ARBİTRAJA MÜRACİƏT** .......... 15

# İSTİFADƏ OLUNMUŞ MƏNBƏLƏR

## Milli qanunvericilik


1. Azərbaycan Respublikası Mülki Məcəlləsi (21.2; 386.1; 421.1; 422.1; 422.2; 430; 439.3; 441.2; 443.1; 465.2; 570.1.1; 571.1)
2. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi (4.6)
3. "Beynəlxalq arbitraj haqqında" Azərbaycan Respublikası Qanunu, 7 (1999)
4. "Mediasiya haqqında" Azərbaycan Respublikası Qanunu, 28.1; 29.7 (2019)
5. "Azərbaycan Respublikası Mülki Məcəlləsinin 422-ci maddəsinin şərh edilməsinə dair" Konstitusiya Məhkəməsinin Plenumunun qərarı (2018)


## Beynəlxalq mənbələr


1. United Nations Convention on Contracts for the International Sale of Goods, 1980 (29(1); 30; 32(1); 32(2); 74; 75)
2. Uncitral Model Law on International Commercial Arbitration, 1985 (1)
3. New York Arbitration Convention, 1958 (2(1); 2(3); V(2(a))
4. Fincantieri-Cantieri Navali Italiani SpA (Italy) v. Ministry of Defense, Armament and Supply Directorate of Iraq, Republic of Iraq (1996). Burada bax: https://www.quimbee.com/cases/fincantieri-cantieri-navali-italiani-spa-italy-v-ministry-of-defense-armament-and-supply-directorate-of-iraq-republic-of-iraq, (son baxış 19 sentyabr 2022)

# FAKTLARIN TƏQDİMATI

1. İddiaçı ilə Cavabdeh arasında 10 dekabr 2021-ci il tarixdə alqı-satqı müqaviləsi imzalanmışdır. Həmin Müqaviləyə əsasən Cavabdeh İddiaçını 2022-ci il ərzində 10 000 ton taxılla təmin etməli idi. Müqavilənin ümumi dəyəri 2 200 000 ABŞ dolları, taxılın 1 tonu 220 ABŞ dolları olaraq müəyyən edilmişdi.
2. Müqavilə üzrə ilk dəfə 2022-ci ilin fevral ayında olmaqla, rübdə bir dəfə 2 500 ton taxıl təmin edilməli idi. Lakin Cavabdeh fevral ayında heç bir mal göndərməmişdir. Cavabdeh 1 mart 2022-ci il tarixdə İddiaçıya bildirmişdir ki, 2 500 ton həcmində taxılı gətirən nəqliyyat şirkətinin avtomobilləri 20 fevral 2022-ci il tarixində yolda qəzaya düşüb və mallar tam məhv olub, buna görə də həmin malın haqqı İddiaçı tərəfindən 5 iş günü ərzində ödənilməlidir.
3. 5 mart 2022-ci il tarixində İddiaçı rəsmi müraciət edərək belə bir absurd tələbə etiraz etmiş, Cavabdehdən taxılı dərhal göndərməyi və göndərmədikləri təqdirdə dəbbə pulunun hesablanması barədə xəbərdarlıq etmişdir.
4. 10 mart 2022-ci il tarixində Cavabdeh İddiaçıya rəsmi məktub yazaraq müqavilə üzrə öhdəliklərini icra edə bilmədiklərini və 6 mart 2022-ci il tarixdə Rusiya Federasiyasına tətbiq edilmiş sanksiyalara görə artıq oradan taxıl ixrac edə bilməyəcəklərini, bu səbəbdən Müqaviləyə dərhal xitam verdiklərini bildirmişlər. Həmçinin Cavabdeh icra etmədikləri müqavilə üzrə 2500 ton taxıl üçün 550 000 ABŞ dollarını dərhal ödəməyi İddiaçıdan tələb etmişdir.
5. Cavabdeh İddiaçıya qarşı Atlantida Krallığında iddia qaldırmış və işə xarici arbirajda baxılmamalı olduğunu vurğulamışdır. Məhkəmə İddiaçının etirazına baxmayaraq, həmin mübahisəni icraata qəbul etmişdir.
6. 10 mart 2022-ci il tarixində Cavabdehin iddiasına əsasən Atlantida Krallığı Sahil Kommersiya Məhkəməsi qərardad çıxarmış və iş üzrə İddiaçı “Soba” LTD şirkətinin vəsatəti təmin edilməmişdir. Məhkəmə iş üzrə Cavabdeh “Supermarket” MMC-nin vəsatətini nəzərə almamış və hər-hansı nəticəyə gəlməmişdir.
7. Belə ki, Cavabdeh öz öhdəliklərini pozduğuna görə İddiaçıya zərər dəymişdir. İddiaçı taxılı başqa ixracatçılardan 1 tonu 320 ABŞ dolları olmaqla 3 125 ton taxıl almaq məcburiyyətində qalmışdır. Nəticədə İddiaçıya 1 000 000 ABŞ dolları zərər dəymişdir.
8. İddiaçı işə arbitrajda baxılması üçün iş üzrə Birinci Arbitrı təyin etmişdir. Cavabdeh ikinci Arbitrı arbitr olaraq təyin etmişdir.

# ARQUMENTLƏRİN XÜLASƏSİ

I. Arbitraj hazırkı işə baxmağa səlahiyyətlidir.
II. Cavabdehin irəli sürdüyü arqumentlər əsassızdır.
III. Sanksiyanın tətbiqi cavabdehi öhdəliklərinin icrasından azad etmir.
IV. Cavabdeh müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsinə görə məsuliyyət daşıyır.

# ARQUMENTLƏR

## I. Arbitraj hazırki işə baxmağa səlahiyyətlidir, çünki (1) müqavilədən və (2) qanunvericilik aktlarından işə arbitrajda baxılmalı olduğu anlaşılır.

1. Tərəflər arasında bağlanmış 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsinin icrası ilə bağlı yaranan mübahisəyə hazırkı arbitraj tribunalında baxılmalıdır. Belə ki, "Beynəlxalq arbitraj haqqında" AR Qanunun 7-ci maddəsinə əsasən hər hansı bir konkret hüquq münasibəti ilə əlaqədar yarana biləcək mübahisələrin hamısının və ya müəyyən mübahisələrin arbitraja verilməsi barəsində tərəflər arbiraj sazişi bağlaya bilər. Arbitraj sazişi müqavilədə arbitraj qeyd-şərti kimi və yaxud ayrıca saziş kimi bağlanıla bilər. Qeyd olunan alqı-satqı müqaviləsinin 7.2-ci maddəsi "ipso jure" arbitraj qeyd-şərti kimi müqavilənin icrası ilə bağlı yarana biləcək mübahisələrin Bakıda keçirilən arbitrajda baxılması ilə bağlı tərəflərin razılığını ifadə edir. Belə ki, arbitraj qeyd-şərtinin modeli Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ Komissiyasının Arbitraj Qaydalarına (bundan sonra "Model Qanunu") da uyğunluq təşkil edir (UNCİTRAL Arbitration Rules m.1). Həmçinin "Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi haqqında" BMT-nin 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyasının (bundan sonra "NY Konvensiyası") 2(1)-ci maddəsinə əsasən Razılığa gələn hər bir Dövlət yazılı razılaşmaya əsasən tərəflər arasında müəyyən edilmiş hüquq münasibəti ilə bağlı, müqavilə əsasında və ya olmayan, öz aralarında yaranmış və ya yarana biləcək bütün və ya hər hansı fikir ayrılıqlarını arbitraja təqdim etməyi öhdələrinə götürürlər. Konvensiyanın 2(3)-cü maddəsində isə yazılı razılaşma ifadəsinin müqavilədə və ya arbitraj müqaviləsində qeyd olunan "arbitraj müddəasını" yəni arbitraj-qeyd şərtini əhatə etməsi vurğulanır. Göründüyü kimi, Azərbaycan Respublikası və Atlantida Krallığının tanıdığı bir çox beynəlxalq aktların normalarının mahiyyətindən tərəflər arasında yarana biləcək mübahisələrin arbitraj tribunalında baxılması ilə bağlı etibarlı arbitraj

qeyd-şərtinin məcburi xarakter daşıması anlaşılır. Yəni tərəflər arbitrajla bağlı müqavilədə razılaşmışsa və bu razılaşma **formal və substantiv** tələblərə uyğundursa tərəflər məhkəməyə müraciət etməzdən öncə yaranmış mübahisəyə arbitrajda baxmağa borcludur.

2. Həm NY Konvensiyası, həm də əksər milli arbitraj qanunları arbitraj sazişinin yazılı olmasını rəsmi tələb kimi müəyyən edir. Yuxarıda qeyd olunduğu kimi NY Konvensiyasının 2(1)-ci maddəsi məhz yazılı razılaşma kimi arbitraj sazişini tanıyır. Nəticə etbiarilə tərəflər arasında imzalanmış müqavilə və müqavilənin tərkibinə daxil olan arbitraj-qeyd şərti formal tələbə riayət olunmasına əsas verir.

   Substantiv tələblər qismində isə NY Konvensiyasına uyğun olaraq arbitraj predmeti arbitraj yolu ilə həll edilə bilən, yəni "arbitrability ratione materiae" olmalı (NY Konvensiyası m.2(1)) və arbitraj icrası mümkün olan qərarla nəticələnməlidir (NY Konvensiyası m.2(3)). Cavabdeh iddia edir ki, Atlantida Krallığının Mülki Prosessual Məcəlləsinin 522(x) saylı maddəsinə və Rusiya Federasiyasının qanunvericiliyinə əsasən sanksiya ilə bağlı mübahisələrə arbitrajda baxıla bilməz. Adıçəkilən maddəyə əsasən Atlantida Krallığının digər ölkələrə tətbiq etdiyi sanksiyalara əməl edən fiziki və hüquqi şəxslərə qarşı həmin sanksiyalar ilə bağlı yaranan iddialar üzrə mübahisələr arbitrajda həll edilə bilməz. Nəzərinizə çatdırırıq ki, tərəflər arasında yaranan mübahisə Cavabdehin müqavilə üzrə razılaşdırılmış malları vaxtında İddiaçıya çatdırmaması nəticəsində yaranmış və bunun nəticəsi olaraq İddiaçıya maddi zərər vurulmuşdur. Mübahisənin yaranmasına əsas səbəb isə Cavabdehin iddia etdiyi 20 fevral 2022-ci il tarixli avtomobil qəzası olmuşdur. Hansı ki, bu qəza nəticəsində Cavabdehin iddiasına əsasən mallar tam məhv olmuş və müqaviləni icra etmək mümkün olmamışdır. Bunun nəticəsidir ki, Mallar İddiaçıya təqdim edilməmiş və İddiaçı malları başqa satıcıdan yüksək qiymətə almaq məcburiyyətində qalmışdır. Dəymiş zərərin ödənilməsi ilə bağlı İddiaçı müqaviləyə əsasən arbitraja müraciət etmişdir. Yuxarıda qeyd olunan faktlardan göründüyü kimi arbitraj mübahisəsinin predmeti öhdəliyin yerinə yetirilməməsi nəticəsində vurulmuş zərərin ödənilməsidir və hazırkı işdə İddiaçının sanksiya ilə bağlı yaranan hər hansı mübahisə üzrə iddiası olmamışdır. İraq Respublikasının Silah və Təchizat İdarəsi vs. "Fincantieri-Cantieri Navali Italiani" Cəmiyyətinə qarşı işində (1996, burada bax: https://www.quimbee.com/cases/fincantieri-cantieri-navali-italiani-spa-italy-v-ministry-of-defense-armament-and-supply-directorate-of-iraq-republic-of-iraq) gəmi istehsalçıları (Navali şirkəti) iddia edirdilər ki, embarqo məhdudiyyətləri İtaliyanın Mülki Prosessual Məcəlləsinə əsasən iddiaları arbitrajda həll edilə bilməyən edir, çünki onlar embarqo qanununa əsasən sərbəst şəkildə sərəncam verilə bilməyən hüquqlara aiddir. Genoa Məhkəməsi İraqla razılaşaraq,

arbitrajın yalnız tərəflərin sərbəst şəkildə sərəncam verə bilmədiyi hüquqlara birbaşa müdaxilə etdiyi və qanunla qadağan olunmuş nəticə ilə nəticələndiyi halda qadağan olunduğunu müəyyən etdi. Məhkəmə müəyyən etdi ki, embarqo qanunvericiliyinə görə qadağan olunmuş nəticə gəmilərin İraqa tədarükü olub, gəmi istehsalçılarının tələb etdiyi zərərin ödənilməsi və müqavilələrə xitam verilməsi deyil. Hazırkı işdə isə Atlantida Krallığının qanunvericiliyinə görə qadağan olunmuş nəticə Rusiya Federasiyasında fəaliyyət göstərən istənilən kommersiya hüquqi şəxsi ilə müqavilə imzalamaq, oradan mal ixrac etmək və ya ona ödəniş etməkdir, İddiaçının tələbi isə əvvəldə qeyd olunduğu kimi məhz dəymiş zərərin ödənilməsidir. Nəticə etibarı ilə substantiv tələblərdən ilki “arbitrability ratione materiae” qarşılanır.

3. NY Konvensiyasının V(2(a)) maddəsinə əsasən Arbitraj qərarının tanınması və icrası o zaman rədd edilə bilər ki, tanınması və icrası tələb edilən ölkənin səlahiyyətli orqanı arbitraj predmetinin həmin ölkənin qanunvericiliyinə uyğun olaraq arbitraj tərəfindən həll edilə bilmədiyini aşkar etsin. Göründüyü kimi Konvensiya arbitraj qərarının icrası üçün predmetin arbitrability ratione materiae olmasını tələb edir. Yuxarıda predmetlə bağlı məsələ əsaslandırılmış və nəticə etibarı ilə icrası tələb edilən ölkənin səlahiyyətli orqanı arbitraj qərarından bu əsasla imtina edə bilməz. Ancaq Cavabdeh İddiaçıya qarşı Atlantida Krallığında iddia qaldırmış və işə xarici arbirajda baxılmamalı olduğunu vurğulamışdır. Məhkəmə İddiaçının etirazına baxmayaraq, həmin mübahisəni icraata qəbul etmişdir. 10 mart 2022-ci il tarixində Cavabdehin iddiasına əsasən Atlantida Krallığı Sahil Kommersiya Məhkəməsi qərardad çıxarmış və iş üzrə İddiaçı “Soba” LTD şirkətinin vəsatəti təmin edilməmişdir. Məhkəmə iş üzrə Cavabdeh “Supermarket” MMC-nin vəsatətini nəzərə almamış və hər-hansı nəticəyə gəlməmişdir. Buna baxmayaraq məhkəmənin ziddiyyətli mövqeyi ondan ibarətdir ki, qərar gələcəkdə icra üçün Atlantida Krallığına gəldikdə Konvensiyanın 5-ci və “Beynəlxalq arbitraj haqqında” Qanunun 36-cı maddəsinə əsasən tanınma və icrasından imtina olunacaqdır. Məhkəmə verdiyi qərarla iş üzrə İddiaçının vəsatətini təmin etməsə belə, predmeti düzgün müəyyən etmədən əsaslandırma aparması tamamilə qanunsuz və əsassızdır. Nəticə olaraq hazırkı işə müqaviləyə və yuxarıda sadalanan qanunvericilik aktlarına əsasən arbitraj tribunalında baxılmalıdır.

## II. Cavabdehin irəli sürdüyü arqumentlər əsassızdır.

1. Cavabdehin iddiasına əsasən qəza mallar yükləndikdən və göndərildikdən sonra yolda baş verib, buna görə də məsuliyyəti İddiaçı daşımalıdır. Müqavilənin 2.1-ci maddəsi ilə Satıcının Malların istifadə edildiyi məqsədlərə uyğun keyfiyyətdə və qaydada Alıcıya təhvil verilməsi öhdəlik kimi

müəyyən edilsə də, Malların hansı məqamda təhvil verilməsi açıq-aydın göstərilmir. Həmçinin Müqavilənin 3-cü bəndinə görə, Mallar Alıcıya təhvil verildikdən sonra 1 gün ərzində Alıcı Malların tam dəyərini Satıcıya ödəməlidir. İşin hallarından bilinir ki, Mallar Alıcıya göndərilməsi üçün yola çıxdıqdan sonra Alıcı tərəfindən heç bir belə ödəniş olmayıb. İşin hallarından bu da məlum olur ki, Satıcı da Alıcıya heç bir invoys və ya başqa formada hesab-faktura göndərməyib və Alıcıdan ödəniş edilməsi tələb olunmayıb. Bu fakt onu əsaslandırır ki, Satıcı heç də Malların yola çıxması məqamı ilə Malların təhvil edilməsi məqamını eyniləşdirmir və Malları yolda olduğu müddətdə təhvil verilməmiş sayır.

AR MM-in 571.1-ci maddəsi isə bildirir ki, əgər alğı-satqı müqaviləsində ayrı qayda nəzərdə tutulmayıbsa, əşyanın təsadüfən məhv olması və ya təsadüfən zədələnməsi riski müqaviləyə uyğun olaraq Satıcının əşyanı alıcıya vermək vəzifəsini icra etmiş sayıldığı andan Alıcıya keçir. Satıcı Malları Alıcıya vermək vəzifəsini icra etmədiyi üçün Malların məhv olmasına görə Satıcı cavabdehdir.

2. Cavabdeh iddia edir ki, İddiaçı arbitraja müraciət etməmişdən əvvəl ilkin mediasiya sessiyasında iştirak etməli idi və İddiaçı ilkin mediasiya sessiyasında iştirak etmədiyinə görə hazırkı arbitraj işinə xitam verilməlidir. "Mediasiya haqqında" AR Qanunun və AR Mülki Prosessual Məcəlləsinin müxtəlif maddələri arbitraja istinad edərkən arbitrajı "münsiflər məhkəməsi" adlandırsa da, arbitrajla məhkəmələr arasında fərq qoyulur və arbitrajla bağlı müddəalarda arbitrajın adı fərqləndirilir. Məsələn, "Mediasiya haqqında" AR Qanununun 29.7-ci maddəsində göstərilir ki, bu Qanunun 29.2-ci, 29.3-cü və 29.6-cı maddələrində göstərilən arayışı və ya protokolu əldə etdikdən sonra tərəf məhkəməyə və ya arbitraja (münsiflər məhkəməsinə) müraciət edə bilər. Göründüyü kimi, "məhkəmə" və "arbitraj" terminləri bir-birindən fərqləndirilib.

   "Mediasiya haqqında" Qanunun 28.1-ci maddəsində isə tələb olunur ki, kommersiya mübahisələri üzrə məhkəməyə müraciət etməmişdən əvvəl tərəflər ilkin mediasiya sessiyasında iştirak etməlidirlər. Bu maddədəki tələbin sadəcə məhkəmələrə aid olduğu və arbitraja şamil olunmadığı açıq-aşkar görünür. Həmçinin eyni məsələni tənzimləyən AR Mülki Prosessual Məcəlləsinin 4.6-cı maddəsində də "arbitraj" ifadəsinə rast gəlinmir. Belə ki, həmin maddəyə əsasən kommersiya mübahisələri üzrə məhkəməyə müraciət etməmişdən əvvəl "Mediasiya haqqında" AR Qanunu ilə müəyyən edilmiş qaydada ilkin mediasiya sessiyasında iştirak tələb olunur.

“Mediasiya haqqında” AR Qanunun 29.7-ci maddəsinin şərtləri isə arbitraj üçün yalnız müqavilədə mediasiya haqqında qeyd-şərt olduqda keçərlidir. Belə bir müddəa İddiaçı və Cavabdeh arasında bağlanan Müqavilədə yoxdur. Nəticədə tərəfin öz məsuliyyətini istisna etməsi və mediasiya tələbi irəli sürməsi əsassız və qanunaziddir.

## III. Sanksiyanın tətbiqi cavabdehi öhdəliklərinin icrasından azad etmir.

1. Sanksiyaların tətbiqi fors-major hal deyil, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi kimi dəyərləndirilməlidir.

Atlantida Krallığı tərəfindən Rusiya Federasiyasına qarşı sanksiyalar tətbiq edilmiş və Rusiyaya istənilən köçürmələr qadağan edilmişdir. Bundan sonra, bütün dünyada taxılın qiyməti 200 ABŞ dollarından 300 ABŞ dollarına qalxmışdır. Cavabdeh isə yaranmış situasiyanın fors-major vəziyyət olduğunu iddia etmiş və bu əsasla Müqaviləyə xitam vermişdir. Lakin fors-major hadisəni (qarşısıalınmaz qüvvə) şəraitin əhəmiyyətli dərəcədə dəyişməsindən fərqləndirmək lazımdır. Belə ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 7 sentyabr 2018-ci il tarixli Plenum qərarında da bu məsələyə aydınlıq gətirilmişdir. Həmin qərara əsasən qarşısıalınmaz qüvvə müqavilə öhdəliklərinin icrasını qeyri-mümkün etdiyi halda, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi öhdəliklərin son dərəcə ağır şərtlərlə icrasını şərtləndirir və onun icrası imkanını aradan qaldırmır. Bu halda öhdəliyin icrası mümkündür. Lakin bu cür icra tərəflərdən biri və ya müqavilədə iştirak edən bütün tərəflər üçün müqaviləni bağladıqları an mövcud olmuş şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi səbəbindən iqtisadi cəhətdən yüklü olur. Beləliklə şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi dedikdə, müqavilənin bağlandığı vaxt ölkədə mövcud olan, tərəflərdən asılı olmayan iqtisadi, hüquqi və digər faktorların əhəmiyyətli dərəcədə dəyişməsi başa düşülməlidir. Qanunvericiliyin tələblərini nəzərə olaraq hazırki işdə Anlantida Krallığı tərəfindən tətbiq olunan sanksiyaları və nəticədə taxılın qiymətinin qalxmasını fors-major hal olaraq göstərmək və bu əsasla müqaviləyə xitam vermək hüquqaziddir. Belə ki, sanksiyaların tətbiqi və taxılın qiymətinin qalxması müqavilənin icrasını tamamilə mümkünsüz etmir. Rusiyaya qarşı sanksiyaların tətbiqi ilə əlaqədar yaranmış vəziyyət sadəcə müqavilənin icrası üçün şərtlərin dəyişdirilməsini və əlavə iqtisadi yük tətbiq olunmasını tələb edir ki, bu əlamətlər şəraitin əhəmiyyətli dərəcədə dəyişməsini xarakterizə edir. Nəticədə hazırki işdə sanksiyaların tətbiqi fors-major hal deyil, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi kimi dəyərləndirilməlidir.

2. Sanksiyaların tətbiqinin şəraitin əhəmiyyətli dəyişməsi kimi dəyərləndirilməsi müqavilənin cavabdeh tərəfindən birtərəfli qaydada xitam olunmasına əsas vermir.

   Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 7 sentyabr 2018-ci il tarixli Plenum qərarına əsasən qanunvericilikdə şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin dəyişdirilməsi və ya ləğvinin iki mərhələli qaydası nəzərdə tutulmuşdur. Belə ki, tərəflər, ilk növbədə, şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi ilə əlaqədar müqavilənin yeni şərtlərinə və ya ləğvinin mümkünlüyünə dair razılığa gəlməyə çalışırlar. Daha sonra tərəflər razılığa gəlmədiyi halda isə müqavilə maraqlı tərəfin tələbi ilə məhkəmə tərəfindən ləğv edilə və ya dəyişdirilə bilər. Tərəflərin müqavilənin əhəmiyyətli dərəcədə dəyişmiş şəraitə uyğunlaşdırılması və ya ləğv edilməsi barədə razılığa gəlməsi müvafiq olaraq Mülki Məcəllənin 422.2-ci maddəsində də əks olunmuşdur. "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" 1980-ci il BMT Konvensiyasının 29(1)-ci maddəsinə əsasən müqavilə tərəflərin adi razılaşması ilə dəyişdirilə və ya ona xitam verilə bilər. Lakin işin hallarından və tərəflər arasındakı yazışmalardan da göründüyü kimi Cavabdeh tərəflə İddiaçı arasında müqavilə şərtlərinin dəyişməsi və ya müqavilənin ləğvinə dair heç bir razılaşma olmamış, bu barədə danışıqlar aparılmamışdır. Cavabdeh 10 dekabr 2021-ci il tarixində müqavilə üzrə öhdəliklərini icra etməyin mümkün olmadığını və bu əsasla müqaviləyə xitam verdiyini əks etdirən bildirişi İddiaçıya göndərmişdir. Lakin artıq istinad etdiyimiz Konstitusiya Məhkəməsinin Plenum Qərarından da göründüyü üzrə Cavabdehin müqaviləni birtərəfli qaydada, İddiaçı ilə hər hansı danışıq və razılıq olmadan xitam vermək səlahiyyəti yoxdur.

3. Müqavilədə birbaşa qeyd olunmayan hallarla bağlı yaranmış dəyişiklikləri şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi olaraq dəyərləndirmək olmaz.

   Tətbiq olunan sanksiyalarla əlaqədar Cavabdeh tərəfindən müqaviləyə birtərəfli qaydada xitam verilməsinin qanuniliyini dəyərləndirmək üçün işlə bağlı bir sıra halları yenidən nəzərinizə çatdırmaq istərdik. Belə ki, Cavabdeh İddiaçıya göndərdiyi xitam bildirişində 6 mart 2022-ci il tarixində Atlantida Krallığı tərəfindən Rusiya Federasiyasına qarşı sanksiyaların tətbiq olunmasını əsas gətirmişdir. Əvvəlcədən bildirdiyimiz kimi həmin məktubun məzmununda cavabdehin taxılları Rusiya Federasiyasından ixrac etməyi nəzərdə tutduğu və hazırda isə sanksiyaların tətbiqi nəticəsində cavabdeh tərəfindən öhdəliklərin icrasının mümkünsüzlüyü əks olunmuşdur. Lakin bu halda biz tərəflər arasında bağlanmış müqavilənin məzmununu da nəzərdən keçirməliyik. Çünki taxılların Rusiyadan ixrac olunması barədə tərəflər arasında yazılı

razılaşma olmamış, ümumiyyətlə müqavilədə Rusiya Federasiyası ilə bağlı heç bir xüsusi maddə qeyd olunmamışdır. Bu halda sanksiyaların tətbiqini şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi olaraq göstərmək də əsassızdır. Belə ki, Mülki Məcəllənin 422.1-i maddəsinə əsasən şəraitin dəyişməsi o halda əhəmiyyətli sayılır ki, əgər tərəflər bu dəyişməni ağlabatan şəkildə əvvəlcədən görə bilsəydilər, müqaviləni əhəmiyyətli dərəcədə fərqlənən şərtlərlə bağlayar və ya ümumiyyətlə, bağlamazdılar. Tərəflər arasında bağlanmış müqavilədə taxılların Rusiya Federasiyasından ixrac olunması ilə bağlı hər hansı şərt olmadığı üçün müqavilənin məhz həmin şərt əsasında bağlandığını iddia etmək əsassızdır. Belə ki, sanksiyaların tətbiqi ilə əlaqədar şəraitin dəyişməsi halında müqavilədə fərqli şərtlərlə bağlanmağa və ya dəyişdirilməyə ehtiyacı olan maddə yoxdur. Bu da deməkdir ki, yaranmış vəziyyətdə şəraitin əhəmiyyətli dərəcədə dəyişməsi olaraq istinad olunacaq hər hansı maddə mövcud deyildir.

Eyni zamanda Cavabdeh müqavilənin 1.1-ci bəndinə əsasən malı Alıcıya (İddiaçıya) təhvil verməlidir. Belə ki, taxılların alıcıya təhvil verilmə forması və üsulları tamamilə satıcının (Cavabdehin) seçiminə buraxılmışdır. Sanksiyaların tətbiqi halında Cavabdeh tərəf öhdəliyini yerinə yetirmək üçün başqa üsul tətbiq etməlidir. Bu halda malların ixrac ölkəsinin dəyişdirilməsi istisna təşkil etmir. Sanksiyaların tətbiqini müqaviləyə xitam vermək üçün əsas gətirmək sadəcə Cavabdeh tərəfindən öhdəliyin icrasından yayınmaq üçün vasitədir. Mülki Məcəllənin 430.1-ci maddəsində də qeyd olunmuşdur ki, əgər bu Məcəllədə ayrı qayda nəzərdə tutulmayıbsa, öhdəliyin icrasından birtərəfli imtinaya və onun şərtlərini birtərəfli dəyişdirməyə yol verilmir. Yuxarıda qeyd olunmuş faktlar əsasında belə bir nəticə çıxarılır ki, Rusiya Federasiyasına qarşı sanksiyaların tətbiqi Cavabdeh tərəfindən öhdəliklərin icrasından imtina etmək və müqaviləyə xitam vermək üçün şərait yaratmır.

## IV. Cavabdeh müqavilə üzrə öhdəliklərini yerinə yetirməməsinə görə məsuliyyət daşıyır: Cavabdehin öhdəliklərini icra etməməsi üçün gətirdiyi əsaslar müqavilə və qanunvericiliklə ziddiyyət təşkil edir.

1. AR MM-in 386.1-ci maddəsinə əsasən öhdəliyin zərər vurulması, əsassız varlanma və ya bu Məcəllədə nəzərdə tutulmuş digər əsaslar nəticəsində əmələ gəlməsi halları istisna olmaqla, öhdəliyin əmələ gəlməsi üçün onun iştirakçıları arasında müqavilə olmalıdır. Hazırkı işdə Tərəflər arasında 10 dekabr 2021-ci il tarixində bağlanmış alqı-satqı müqaviləsi mövcuddur və

bu müqaviləyə əsasən Satıcı 2 200 000 ABŞ dolları dəyərində Atlantida Krallığı istehsalı olan, 10 000 ton taxılı (bundan sonra "Mallar") Alıcıya təhvil verməyi, Alıcı isə Satıcının həmin Mallarını təhvil alıb haqqını ödəməyi öhdəsinə götürür. Tərəflər müqavilə üzrə öhədliklərinin tam və vaxtında yerinə yetirilməsi üçün məsuliyyət daşıyırlar. Qeyd olunan Müqavilənin 6.2-ci bəndinə əsasən Tərəflərin hər hansı biri fors-major ilə üzləşdikdə digər tərəfə dərhal rəsmi şəkildə (qəbulunu təsdiqləyən formada) fors-majorun halının nədən ibarət olması, ehtimal olunan davam etmə dövrü və proqnozlaşdırılan təsiri haqqında təfsilatlı məlumat təqdim etməlidir. Cavabdeh 1 mart 2022-ci il tarixində göndərdiyi elektron poçtda 20 fevral 2022-ci il tarixli qəzanın baş verməsini fors-major hal kimi təqdim etmişdir. Lakin Cavabdeh qəza barədə məlumatı onun baş verməsindən 8 gün sonra bildirmiş və qəzanın baş verməsi barədə heç bir təsdiqləyici sənəd təqdim etməmişdir.

2. Cavabdeh tərəf iddia etmişdir ki, Müqaviləyə əsasən mallar, nəqliyyat şirkətinə təqdim edildikdən sonra onlara görə məsuliyyəti Alıcı daşıyır. "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" 1980-ci il BMT Konvensiyasının 30-cu maddəsinə əsasən Satıcı (Cavabdeh) müqavilə və bu Konvensiyanın tələblərinə uyğun olaraq malları göndərməli, ona aid olan sənədləri təqdim etməli və mallar üzərində mülkiyyət hüququnu ötürməlidir. Mülki Məcəllənin 570.1.1-ci maddəsinə əsasən müqavilədə satıcının əşyanı çatdırmaq vəzifəsi nəzərdə tutulubsa, əşyanın alıcıya və ya onun göstərdiyi şəxsə təhvil verildiyi məqam satıcının əşyanı təhvil vermək vəzifəsinin icrası məqamı hesab olunacaqdır. Müqavilənin 1.1-ci bəndində açıq-aşkar formada Cavabdehin malı təhvil vermə öhdəliyi göstərilmişdir. Bu o deməkdir ki, mallar təhvil verilmədiyinə görə Cavabdeh məsuliyyətdən azad olmamışdır. Eyni zamanda tərəflər arasında imzanlanmış müqavilənin 4.2-ci maddəsində qeyd olunur ki, satıcı ona həvalə olunmuş tapşırıqları yerinə yetirən işçi heyətinə görə tam məsuliyyət daşıyır. İddiaçı tərəfindən göndərilmiş cavab məktubundan da göründüyü kimi nəqliyyat şirkəti Cavabdeh tərəfindən seçilmiş, haqqı ödənilərək taxılların daşınılması üçün cəlb olunmuşdur. Yəni Cavabdeh təkcə malın təhvil verilməsi üçün yox, həmçinin baş vermiş qəzada malın məhv olması nəticəsində dəymiş zərərə görə də məsuliyyət daşıyır. Həmçinin "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" 1980-ci il BMT Konvensiyasının 32(1) və 32(2) saylı maddələrinə əsasən Satıcı (Cavabdeh) müqaviləyə və ya bu Konvensiyaya uyğun olaraq malları daşıyıcıya təhvil verirsə və mallar markalanma, yükləmə sənədləri vasitəsilə və ya digər qaydada müqavilənin məqsədləri üçün dəqiq fərdiləşdirilməyibsə, satıcı malları dəqiqləşdirməklə alıcıya göndəriş haqqında bildiriş verməlidir. Satıcı malların daşınmasını təmin etməlidirsə, o malların

təyinat yerinə mövcud şərtlər daxilində lazımi daşınma üsulları ilə daşınması üçün zəruri olan və belə daşınma üçün adi olan şərtlərlə müqavilələr bağlanılmalıdır. Yəni tərəflər arasında malların daşınması ilə bağlı razılıq mövcud olsa idi belə Cavabdeh tərəfindən İddiaçıya göndəriş haqqında bildiriş və daşıyıcı ilə bağlanmış müqavilələr təqdim olunmalı idi.

3. AR MM-in 421.1-ci maddəsində də müəyyən olunmuşdur ki, müqavilənin dəyişdirilməsi və ləğv edilməsi, əgər bu Məcəllədə və ya müqavilədə ayrı qayda nəzərdə tutulmayıbsa, tərəflərin razılaşması ilə mümkündür. Cavabdeh tərəfindən 10 mart 2022-ci il tarixində İddiaçıya bildiriş göndərilmiş və müqaviləyə xitam verildiyi qeyd olunmuşdur. Cavabdeh xitamın əsası kimi öz öhdəliklərini yerinə yetirə bilməməsini göstərmişdir. Lakin müqavilədə birbaşa olaraq göstərilir ki, müqaviləyə satıcı tərəfindən yalnız o halda xitam verilə bilər ki, alıcı tərəfindən müqavilə əhəmiyyətli dərəcədə pozulmuş olsun (Müqavilə m.10.1). Artıq qeyd olunduğu üzrə alıcı tərəfindən hər hansı pozuntu törədilməmişdir, əksinə müqavilədə qeyd olunan öhdəliklərini yerinə yetirməyən tərəf Cavabdehdir. Nəticədə müqavilənin birtərəfli şəkildə Cavabdeh tərəfindən xitam verilməsi əsassız və qanunsuzdur.
4. AR MM-in 441.2-ci maddəsinə əsasən mükəlləfiyyətli tərəf müqavilədə şərtləşdirilmiş öhdəliyin icrasını həyata keçirmədikdə və ya həmin icranın müəyyənləşdirilmiş müddətdə həyata keçirilməyəcəyini aşkar edən hallar olduqda qarşılıqlı icra öhdəsinə düşən tərəf öz öhdəliyinin icrasını dayandıra bilər və ya öhdəliyin icrasından imtina edib zərərin əvəzinin ödənilməsini tələb edə bilər. AR MM-in 443.1-ci maddəsinə əsasən öhdəliyin icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur. AR MM-in 21.2-ci maddəsinə əsasən zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması və ya əmlakının zədələnməsi (real zərər), habelə hüququ pozulmasaydı, həmin şəxsin adi mülki dövriyyə şəraitində əldə edəcəyi gəlirlər (əldən çıxmış fayda) başa düşülür. Həmçinin AR MM-in 465.2-ci maddəsinə əsasən əgər borclu öhdəliyin lazımınca icra edilməməsi, o cümlədən müəyyənləşdirilmiş müddətdə icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd etmişdirsə, kreditor cərimənin ödənilməsini və öhdəliyin icrasını tələb edə bilər. Müqavilənin 4.3-cü maddəsinə əsasən hər gecikdirilmiş öhdəliyin hər günü üçün öhdəliyin dəyərinin 1 faizi həcmində cərimə ödənməlidir. “Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında” 1980-ci il BMT Konvensiyasının 74 və 75 saylı maddələrinə əsasən tərəflərdən biri tərəfindən müqavilənin pozulmasına görə zərər müqavilənin pozulması nəticəsində digər tərəfin çəkdiyi, əldən çıxmış fayda da daxil olmaqla, itkiyə bərabər olan məbləği təşkil edir. Belə zərər müqaviləni pozmuş tərəfin müqavilənin bağlanması anında, onun

həmin zaman bildiyi və ya bilməli olduğu faktlar və hallar da nəzərə alınmaqla, müqavilənin pozulmasının mümkün nəticəsi kimi gördüyü və ya görməli olduğu itkidən yuxarı ola bilməz. Həmçinin müqaviləyə xitam verilmişdirsə və müəyyən formada və xitamdan sonra ağlabatan müddətdə alıcı əvəzinə mallar aldıqda və ya satıcı malları yenidən satdıqda, zərərin əvəzinin ödənilməsini tələb edən tərəf müqavilə qiyməti ilə əvəzinə bağlanılmış əqd üzrə qiymət arasında fərqi, həmçinin 74-cü maddə əsasında tələb oluna bilən istənilən əlavə zərəri tələb edə bilər. Belə ki, İddiaçı taxılı başqa ixracatçılardan 1 tonu 320 ABŞ dolları olmaqla 3 125 ton taxıl almaq məcburiyyətində qalmışdır. Nəticədə İddiaçıya 1 000 000 ABŞ dolları zərər dəymişdir. Cavabdeh tərəfindən İddiaçıya 1 000 000 dollar real zərər və əlavə olaraq müqavilə qiyməti ilə əvəzinə bağlanılmış əqd üzrə qiymət arasında fərq kimi əldən çıxmış fayda 250 000 ABŞ dolları zərər vurulmuşdur. Burada yuxarıda adıçəkilən faktlardan görünür ki, Cavabdehin müqavilə üzrə öz öhdəliklərini yerinə yetirmək kimi bir niyyəti yoxdur və buna görə də İddiaçının dəymiş zərərin əvəzini, həmçinin müqavilə üzrə müəyyənləşdirilmiş cərimənin ödənilməsini tələb etməyə tam hüququ vardır.

5. AR MM-in 439.3-cü maddəsinə əsasən Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır. Arbitraj bildirişinin verildiyi zaman Mərkəzi Bankın təyin etdiyi uçot faiz dərəcəsi 7.5% olmuşdur və bu miqdarla da cavabdehin öhdəliklərini icra etməməsi səbəbindən yığılmış borclarına faizlər hesablanacaqdır (burada bax: https://www.cbar.az/infoblocks/corridor_percent (son baxış 20 sentyabr 2022)). Yəni Cavabdeh müqavilə üzrə öhdəliklərinin yerinə yetirməməsi səbəbi ilə dəymiş zərəri, gecikdirilmiş öhdəlik üçün hesablanan cəriməni və uçot faiz dərəcəsinə əsaslanan faizləri ödəməyə borcludur.

# TƏLƏBLƏR

**I. Cavabdeh öz öhdəliklərini icra etmədiyi üçün İddiaçı real zərərlə üzləşmiş və buna görə də “Soba” LTD tərəfindən 1.000.000 ABŞ dolları real zərər və 28 fevral 2022-ci il tarixindən vəsait ödəniləndə qədər Müqaviləyə əsasən gündəlik 1 faiz həcmində cərimə “Supermarket” MMC-yə ödənilməlidir.**

AR MM-in 21.2-ci maddəsinə əsasən zərər dedikdə, hüququ pozulmuş şəxsin pozulmuş hüququnu bərpa etmək üçün çəkdiyi və ya çəkməli olduğu xərclər, əmlakından məhrum olması

və ya əmlakının zədələnməsi (real zərər) başa düşülür. Həmçinin AR MM-in 465.2-ci maddəsinə əsasən əgər borclu öhdəliyin lazımınca icra edilməməsi, o cümlədən müəyyənləşdirilmiş müddətdə icra edilməməsi üçün cərimə ödəyəcəyini vəd etmişdirsə, kreditor cərimənin ödənilməsini və öhdəliyin icrasını tələb edə bilər.

**II. Öhdəliyin Cavabdeh tərəfindən icra edilməməsi səbəbindən İddiaçı Malları başqa Satıcıdan yüksək qiymətə almaq məcburiyyətində qalaraq 10 dekabr 2021-ci il tarixli alqı-satqı müqaviləsi üzrə əldə edəcəyi gəlirlərdən məhrum olmuşdur. Buna görə də "Soba" LTD tərəfindən təxminən 250.000 ABŞ dolları təşkil edən zərəri əldən çıxmış fayda şəklində "Supermarket" MMC-yə ödəməlidir.**

Öhdəliyin icra etməyən borclu kreditora dəymiş zərərin əvəzini ödəməyə borcludur (AR MM m. 443.1). Malların Beynəlxalq Alqı-satqısına dair müqavilələr haqqında Konvensiyaya və Mülki Məcəlləyə əsasən zərər dedikdə, eyni zamanda əldən çıxmış fayda da başa düşülür. Əldən çıxmış fayda zərərçəkənin hüququ pozulmasaydı, onun adi mülki dövriyyə şəraitində əldə edə biləcəyi gəlirlər başa düşülür. "Malların beynəlxalq alqı-satqı müqavilələri haqqında" 1980-ci il BMT Konvensiyasının 74 və 75 saylı maddələrinə əsasən tərəflərdən biri tərəfindən müqavilənin pozulmasına görə zərər müqavilənin pozulması nəticəsində digər tərəfin çəkdiyi, əldən çıxmış fayda da daxil olmaqla, itkiyə bərabər olan məbləği təşkil edir.

**III. Cavabdehin İddiaçıya cəmi 1.250.000 ABŞ dolları həcmində olan borcundan qanunvericiliyin tələblərinə uyğun olaraq, Mərkəzi Bankın təyin etdiyi uçot faiz dərəcəsi ilə 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər hesablanmış faizlər "Soba" LTD tərəfindən "Supermarket" MMC-yə ödənməlidir.**

Qanuna və ya müqaviləyə əsasən borcun üstünə faizlər hesablanmalı olduqda, əgər bu Məcəllə ilə və ya müqavilə ilə ayrı qayda müəyyənləşdirilməyibsə, onlar iki faiz bəndi əlavə edilməklə Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən müəyyən edilən uçot dərəcəsi miqdarında, lakin ildə azı beş faiz miqdarında hesablanır (AR MM m. 439.3).

# ARBİTRAJA MÜRACİƏT

Yuxarıda qeyd edilənləri nəzərə alaraq İddiaçı arbitraj tribunalından aşağıdakıları tələb edir:

1. 1.000.000 ABŞ dolları real zərər və 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Müqaviləyə əsasən gündəlik 1 faiz həcmində cərimə Cavabdeh tərəfindən İddiaçıya ödənilsin;

2. Cavabdeh tərəfindən 250.000 ABŞ dolları təşkil edən zərəri əldən çıxmış fayda şəklində İddiaçıya ödənilsin;
3. 28 fevral 2022-ci il tarixindən vəsait ödənilənə qədər Azərbaycan Respublikası qanunvericiliyinə əsasən uçot faiz dərəcəsi ilə (7.5%) faiz İddiaçıya ödənilsin;
4. Arbitraj və hüquqşünas xərcləri Cavabdeh tərəfindən ödənilsin.